Azərbaycan Respublikasının
Bizness Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 13 – 19 yanvar 2025-ci il •**

**“Su şəbəkəsinə qoşulma” İşçi qrupunun fəaliyyəti**

**17.01.2025**

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

**teleqraf.com**

**"Qoşulma tarifləri əhalinin su təchizatının daha keyfiyyətli təminatına təkan olacaq"**



Azərbaycanda iqtisadi, siyasi, sosial və digər sahələrdə hər il müxtəlif tənzimlənmələr müəyyənləşdirilir və islahatlar keçirilir. Bu baxımdan Azərbaycanda su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətləri üzrə ilk dəfə dövlət tərəfindən tariflər müəyyən edilib. Bu addım, bu sahədə işlərin indiyədək pərakəndə şəkildə və qeyri-birxətli məbləğlərlə həyata keçirilməsinə son qoyaraq xidmətlərin daha şəffaf və nizamlı şəkildə təşkil edilməsini təmin etməyə yönəlib. Teleqraf.com xəbər verir ki, bu fikirləri iqtisadçı ekspert Samir Heydərov deyib.

O bildirib ki, Prezident İlham Əliyevin iqtisadi siyasətinin davamı olaraq bir sıra kommunal xidmətlərin tarifləri və sistemə qoşulma qaydaları müəyyənləşib: “Bu sahədə qaydaların müəyyənləşməsi xidmətlərin keyfiyyətinin artırılmasına və biznes mühitinin yaxşılaşdırılmasına xidmət edir. Tarif Şurasının iclasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təklifi nəzərə alınaraq su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətinə

görə ilk dəfə olaraq tariflər təsdiq edilib. İndiyədək bu sahədə işlər dövlət tənzimlənməsi olmadan pərakəndə şəkildə fərqli məbləğlərlə həyata keçirilirdi. Su təchizatı və tullantı sularının axıdılması üzrə təsdiq olunmuş tariflərdə əhali abonentləri üzrə qoşulma üçün həm sosial xarakterli, həm də şəhər və regionlar üzrə diferensial yanaşma tətbiq olunub. Bu sahədə tənzimləmə qoşulma ilə bağlı xərcləri azaldacaq, dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə öz töhfəsini verəcək, maliyyə şəffaflığına və uçot sisteminin təkmilləşdirilməsinə, eyni zamanda pərakəndəliyin aradan qaldırılması ilə sahibkarlar tərəfindən investisiya qoyuluşu zamanı xərclərin əvvəlcədən hesablanmasına şərait yaradacaq”.

Ekspertin fikrincə, “Su təchizatı və tullantı sularının axıdılması sisteminə (STTSAS) qoşulma” operativ şəkildə həyata keçirilir: “Bu istiqamətdə xidmətin əməkdaşları abonentlərin suallarına 7/24 həm telefon, həm də sosial şəbəkə hesabları üzərindən cavab verirlər. Ümumiyyətlə onu da qeyd edək ki, əhali abonentləri üçün Bakı, Sumqayıt, Xırdalan şəhəri, Abşeron rayonu üzrə su təchizatı şəbəkəsinə qoşulmanın birdəfəlik tarifi 200 manat, digər inzibati ərazi vahidləri üzrə isə 170 manat müəyyən edilib".

Tullantı sularının axıdılması şəbəkəsinə qoşulma üzrə tariflər Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu üzrə 345 manat, digər inzibati ərazi vahidləri üzrə isə 290 manat səviyyəsində təsdiq edilib.

Sutka ərzində tələb olunan buraxılış həcmi 100 kubmetrə qədər olan tikinti obyektləri üçün su təchizatı şəbəkəsinə qoşulmanın bir dəfəlik tarifi borunun diametrindən asılı olaraq 995 manat və ya 1015 manat, tullantı sularının axıdılması şəbəkəsinə qoşulmaya görə 1635 manat məbləğində müəyyən edilib.

Qoşulma ilə əlaqədar tikinti obyektinin vəsaiti hesabına görüləcək işlər 30 metrədək məsafəni əhatə edir. Bu məsafə 30 metrdən artıq olduqda isə mövcud şəbəkə təchizatçı tərəfindən genişləndirilir və bunun üçün əlavə ödəniş tələb edilmir.

Samir Heydərovun sözlərinə görə, 2016-cı ildə yaradılmış Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın fəaliyyəti qaneedici şəkildə qiymətləndirilir. Komissiya davamlı iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyi və milli iqtisadiyyatın rəqabət qabiliyyətliyinin artırılması yolu ilə iqtisadiyyatda dayanıqlı və sürətli inkişafa nail olunmasına istiqamətlənib.

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

Məhz komissiyanın fəaliyyətinın müsbət nəticəsidir ki, ölkəmiz son aylar bir çox beynəlxalq reytinqlərdə qabaqcıl yerləri tuta bilib. Komissiyanın tərkibində ümumilikdə müstəqil ekspertlərdən ibarət 25 işçi qrupu fəaliyyət göstərir ki, bunlardan biri də “Su şəbəkəsinə qoşulma” işçi qrupudur. İşçi qrupu göstərilən xidmətlərdə keyfiyyətin artırılması, biznes mühitinin yaxşılaşdırılması və innovativ idarəetmə metodlarının tətbiqi, inzibatçılığın təkmilləşdirilməsinə səbəb olan təcrübələrdən istifadə üçün fəaliyyət göstərir. Bu işçi qrupunun yaradılması inkşafa nail olmaq məqsədi daşıyır.

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

**Mənbə:**

https://teleqraf.com/news/toplum/449217.html

### Digər saytlar və portallar

1. https://azersu.az/az/blog/3330
2. https://www.manset.az/news/132544
3. https://bakivaxti.az/az/posts/detail/qosulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq-1737102092
4. https://www.gununsesi.info/qosulma-tarifl%c9%99ri-%c9%99halinin-su-t%c9%99chizatinin-daha-keyfiyy%c9%99tli-t%c9%99minatina-t%c9%99kan-olacaq/
5. https://modern.az/tehsil/503249
6. https://veteninfo.az/qosulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq
7. https://qaynarinfo.az/az/qosulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq
8. https://konkret.az/qosulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq/
9. https://www.7news.az/az/qosulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq/
10. https://demokrat.az/az/news/220382/qosulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq
11. https://publika.az/news/sosial/552285.html
12. https://azadmedia.az/cemiyyet/109744-qoulma-tariflri-halinin-su-tchizatnn-daha-keyfiyytli-tminatna-tkan-olacaq.html
13. https://ikisahil.az/post/568290-qoshulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq
14. https://abc.az/az/news/166019/qosulma-tarifleri-ehalinin-su-techizatinin-daha-keyfiyyetli-teminatina-tekan-olacaq

crossmedia.az

## Azərbaycanda su təchizatı və tullantı suları sistemlərinə qoşulma üzrə tariflər uğurla həyata keçirilir

Azərbaycanda iqtisadi, siyasi, sosial və digər sahələrdə hər il müxtəlif tənzimlənmələr müəyyənləşdirilir və islahatlar keçirilir. Bu baxımdan Azərbaycanda su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətləri üzrə ilk dəfə dövlət tərəfindən tariflər müəyyən edilib. Bu addım, bu sahədə işlərin indiyədək pərakəndə şəkildə və qeyri-birxətli məbləğlərlə həyata keçirilməsinə son qoyaraq, xidmətlərin daha şəffaf və nizamlı şəkildə təşkil edilməsini təmin etməyə yönəlib.

Mövzu ilə bağlı iqtisadçı ekspert Samir Heydərov Crossmedia.az- a açıqlama verib. Ekspert bildirib ki, ölkə Prezidenti İlham Əliyevin müvəffəqiyyətli iqtisadi siyasətinin davamı olaraq bir sıra kommunal xidmətlərin tarifləri və sistemə qoşulma qaydaları müəyyənləşib: “Bu sahədə qaydaların müəyyənləşməsi xidmətlərin keyfiyyətinin artrılmasına və biznes mühitinin yaxşılaşdrılmasına xidmət edir. Tarif Şurasının iclasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təklifi nəzərə alınaraq su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətinə



“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

görə ilk dəfə olaraq tariflər təsdiq edilib. İndiyədək bu sahədə işlər dövlət tənzimlənməsi olmadan pərakəndə şəkildə fərqli məbləğlərlə həyata keçirilirdi. Su təchizatı və tullantı sularının axıdılması üzrə təsdiq olunmuş tariflərdə əhali abonentləri üzrə qoşulma üçün həm sosial xarakterli ,həm də şəhər və regionlar üzrə diferensial yanaşma tətbiq olunub. Bu sahədə tənzimləmə qoşulma ilə bağlı xərcləri azaldacaq ,dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə öz töhfəsini verəcək,maliyyə şəffaflığına və uçot sisteminin təkmilləşdrilməsinə eyni zamanda pərakəndiliyin aradan qaldırılması ilə sahibkarlar tərəfindən investisiya qoyuluşu zamanı xərclərin əvvəlcədən hesablanmasına şərait yaradacaq”.

S.Heydərovun fikrincə, Su təchizatı və tullantı sularının axıdılması sisteminə (STTSAS) qoşulma operativ şəkildə həyata keçirilir: “Bu istiqamətdə xidmətin əməkdaşları abonentlərin suallarına 7/24 həm telefon, həm də sosial şəbəkə hesabları üzərindən cavab verirlər.Ümumiyyətlə onu da qeyd edək ki, əhali abonentləri üçün Bakı, Sumqayıt, Xırdalan şəhəri, Abşeron rayonu üzrə su təchizatı şəbəkəsinə qoşulmanın birdəfəlik tarifi 200 manat,digər inzibati ərazi vahidləri üzrə isə 170 manat müəyyən edilib. Tullantı sularının axıdılması şəbəkəsinə qoşulma üzrə tariflər Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu üzrə 345 manat, digər inzibati ərazi vahidləri üzrə isə 290 manat səviyyəsində təsdiq edilib. Sutka ərzində tələb olunan buraxılış həcmi 100 kubmetrə qədər olan tikinti obyektləri üçün su təchizatı şəbəkəsinə qoşulmanın bir dəfəlik tarifi borunun diametrindən asılı olaraq 995 manat və ya 1015 manat, tullantı sularının axıdılması şəbəkəsinə qoşulmaya görə 1635 manat məbləğində müəyyən edilib. Qoşulma ilə əlaqədar tikinti obyektinin vəsaiti hesabına görüləcək işlər 30 metrədək məsafəni əhatə edir. Bu məsafə 30 metrdən artıq olduqda isə mövcud şəbəkə təchizatçı tərəfindən genişləndrilir və bunun üçün əlavə ödəniş tələb edilmir”.

İqtisadçının sözlərinə görə: “2016-cı ildə yaradılmış Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın fəaliyyəti qaneedici şəkildə həyata keçirilir. Komissiya davamlı iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndrilməsi, biznes və investisiya mühitinin yaxşılaşdrılması, sahibkarlığa dövlət dəstəyi və milli iqtisadiyyatın rəqabət qabiliyyətliyinin artrılması yolu ilə iqtisadiyyatda dayanıqlı və surətli inkşafa nail olunmasına istiqamətlənmişdir.

Məhz komissiyanın fəaliyyətinin müsbət nəticəsidir ki, ölkəmiz son aylar bir çox beynəlxalq reytinqlərdə qabaqcıl

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

yerləri tuta bilmişdir. Komissiyanın tərkibində ümumilikdə müstəqil ekspertlərdən ibarət 25 işçi qrupu fəaliyyət göstərir ki, bunlardan biri də Su şəbəkəsinə qoşulma işçi qrupudur. İşçi qrupu göstərilən xidmətlərdə keyfiyyətin artrılmasına və biznes mühitinin yaxşılaşdrılmasına beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdrılmasına səbəb olan təcrübələri və innovativ idarəetmə metodlarının tətbiqinə, inzibatçılığın təkmilləşdrilməsinə səbəb olan tədbirlərin icrasına səbəb olan təcrübələrin tətbiqi üçün fəaliyyət göstərir. Bu işçi qrupunun yaradılması inkşafa səbəb olan bir addımdır".

**Mənbə:**

https://crossmedia.az/az/iqtisadiyyat/su-ehtiyatlari/az-rbaycanda-su-t-chizati-v-tullanti-sulari-sisteml-rin-qosulma-uezr-tarifl-r-ugurla-h-yata-kecirilir

"Kommunal xidmətlər (su təchizatı)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

**İnternetə qoşulma və internet infrastrukturu Işçi qrupunun fəaliyyəti**

**17.01.2025**

crossmedia.az

## Azərbaycanda sabit genişzolaqlı internet xidmətlərinə qoşulma prosesi sürətlənir



Azərbaycanda rəqəmsal inkişafın sürətləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmaqdadır. Xüsusilə genişzolaqlı internet xidmətlərinə çıxışın artırılması və keyfiyyətinin yaxşılaşdırılması ölkənin informasiya-kommunikasiya texnologiyaları sektorunun prioritet istiqamətlərindən biridir. Bu addımlar həm şəhər, həm də ucqar kənd yerlərində rəqəmsal bərabərsizliyin azaldılmasına xidmət edir. İnfrastruktur layihələri, dövlət dəstəyi və beynəlxalq əməkdaşlıq vasitəsilə sabit internet xidmətlərinin daha geniş əhali qruplarına çatdırılması hədəflənir. Bu proses həm ölkənin iqtisadi potensialının artırılmasına, həm də rəqəmsal texnologiyalardan istifadənin genişlənməsinə təkan verir.
Mövzu ilə bağlı Beynəlxalq Rabitə Akademiyasının Azərbaycan Filialının Fəxri Prezidenti, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın sədri, texnika üzrə fəlsəfə doktoru, professor Siruz Abasbəyli Crossmedia.az-a açıqlama verib. O bildirib ki, Azərbaycanda sabit genişzolaqlı internet xidmətinə qoşulma prosesi təkmilləşdirilir.
Sədrin sözlərinə görə, hazırda bu xidmətə qoşulma müddəti abunəçinin yaşadığı məkana (həyət evi və ya çoxmərtəbəli bina)

“Kommunal xidmətlər (internet)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 09.07.2024-cü il tarixində təsdiq olunub

görə dəyişsə də, adətən 1-7 təqvim günü ərzində həyata keçirilir. Prosesin daha sürətli olması üçün abunəçilərə "Aztelekom" şirkətinin rəsmi internet portalı vasitəsilə (aztelekom.az) müraciət etmələri tövsiyə olunur:

"Xidmətin keyfiyyət göstəricilərinin yüksək səviyyədə saxlanılması üçün abunəçinin qəbul etdiyi siqnal səviyyəsi real vaxt rejimində monitorinq edilir. Hər hansı problem aşkarlanarsa, texniki heyət operativ müdaxilə həyata keçirir".

S.Abasbəyli qeyd edib ki, abunəçilərin ən çox rastlaşdığı problemlərdən biri də mənzillər daxilində və ya həyətyanı sahələrdə internet siqnalının zəif olmasıdır:

"Bu problem əsasən modemlərin yerləşdirilməsindən və istifadə olunan avadanlıqlardan qaynaqlanır. Problemin həlli üçün istifadəçilərə əlavə ötürücü avadanlıqların quraşdırılması və Wi-Fi şəbəkəsinin 5 GHz bantında konfiqurasiyası tövsiyə edilir. Bu mövzuda həm şifahi, həm də videotəlimatlar təqdim olunur ki, istifadəçilər texniki problemləri daha asan həll edə bilsinlər. Onu da deyim ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya sözügedən istiqamətdə mühüm addımlar atır. Bu baxımdan qurumun İnternetə qoşulma və internet infrastrukturu işçi qrupu müstəsna rol oynayır. İşçi qrup Azərbaycanın rəqəmsal inkişafı, internet proseslərinin yerinə yetirilməsi, problemlərin həlli istiqamətində faydalı çalışmalar həyata keçirir. Bu sektorda gedən proseslər daim diqqətdə saxlanılır".

Sonda o vurğulayıb ki, bu yanaşmalar Azərbaycan telekommunikasiya sektorunda genişzolaqlı internet xidmətlərinin keyfiyyətini artırmaqla yanaşı, abunəçilərin məmnuniyyətini təmin etməyə də xidmət edir.

**Mənbə:**

https://crossmedia.az/az/iqtisadiyyat/telekommunikasiya-ve-neqliyyat/az-rbaycanda-sabit-geniszolaqli-internet-xidm-tl-rin-qosulma-prosesi-suer-tl-nir

"Kommunal xidmətlər (internet)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 09.07.2024-cü il tarixində təsdiq olunub

## “Vergi və hesabatlılıq” işçi qrupunun fəaliyyəti

**16.01.2025**

report.az

**Azərbaycanda ixrac fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə ilk dəfə qaytarılan ödənişlər açıqlanıb**



Azərbaycanda ötən il ixrac fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə 69 milyon 248,7 min manat məbləğində artıq ödəmə məbləği vergilərin avtomatlaşdırılmış qaydada qaytarılması mexanizmi vasitəsilə qaytarılıb.

Bunu “Report”a açıqlamasında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İqtisadi təhlil və proqnozların icrasına nəzarət baş idarəsinin şöbə rəisi Telman Məmmədov bildirib.

Onun sözlərinə görə, ötən il Azərbaycanın vergi sistemində bəzi yeniliklər tətbiq olunub: “Bunlardan biri də dövlət büdcəsinə artıq ödənilmiş məbləğlərinin qaytarılması üçün yaradılan yeni mexanizmdir. Bu mexanizm ixrac fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin artıq ödəmə məbləğləri nəzarət tədbirlərinə məruz qalmadan çevik şəkildə qaytarılmasını nəzərdə tutur”.

O əlavə edib ki, bu mexanizm Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi "Vergi və hesabatlılıq" işçi qrupunun müvafiq Yol Xəritəsi çərçivəsində apardığı işlər çərçivəsində tətbiq olunub: “İşçi qrupun vergi inzibatçılığının effektivliyinin artırılması ilə bağlı apardığı müzakirələrin və müvafiq təşəbbüslərinin nəticəsi olaraq 2024-cü ildə ixrac fəaliyyəti ilə

“Vergitutma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 02.04.2024-cü il tarixində təsdiq olunub

məşğul olan sahibkarlar üçün artıq ödəmə məbləğləri daha sadələşdirilmiş şəkildə qaytarılması prosesinə start verilib”.

T. Məmmədov vurğulayıb ki, ixrac fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin artıq ödəmə məbləğləri barədə ərizələr vergi orqanı tərəfindən hazırlanaraq hər ay təsdiqlənib göndərilməsi üçün vergi ödəyicilərinə təqdim edilir.

Şöbə rəisinin fikrincə, artıq ödənilmiş məbləğlərin çevik qaydada qaytarılması ixrac fəaliyyəti ilə məşğul olan sahibkarların maliyyə resurslarının likvidliyinin artırılmasına şərait yaradıb, eyni zamanda, onların inzibati işlərə vaxt itkisinin qarşısını alıb: “Artıq ödənilmiş vergilərin avtomatlaşdırılmış qaydada qaytarılması mexanizminə əsasən, vergi orqanı tərəfindən belə məbləğlər müəyyən edilərək qaytarılması məqsədəmüvafiq hesab olunan məbləğlər seçilir və sistemdə təsdiq əməliyyatı yerinə yetirilir. Vergi orqanının təsdiqi nəticəsində ödəyicinin elektron kabinetində tərtib edilmiş ərizə məlumatları avtomatik əks olunur və vergi ödəyicisinə bildiriş göndərilir. Ərizə vergi ödəyicisi tərəfindən təsdiq, rədd və ya düzəliş (məbləğin azalması, hesabın dəyişdirilməsi) edilə bilər. Ərizə vergi ödəyicisi tərəfindən təsdiqləndikdə müəyyən edilmiş müddət ərzində icra olunması üçün vergi orqanına verilir və müvafiq rəy tərtib edilərək aidiyyəti üzrə göndərilir”.

T.Məmmədov deyib ki, yeni inzibatçılıq mexanizmi ilkin olaraq ixrac fəaliyyəti göstərən vergi ödəyicilərini əhatə etsə də, sonrakı mərhələlərdə digər vergi ödəyicilərinə də şamil olunması nəzərdə tutulur: “Vergi ödəyicilərinin məmnunluğunun artırılması məqsədilə artıq ödənilmiş vəsaitlərin geri alınması prosesini özündə əks etdirən “Vahid elektron lövhə” fəaliyyət göstərir”.

Qeyd edək ki, müraciətlərin icra vəziyyəti barədə statistik məlumatlar DVX-nin rəsmi internet saytındakı “Vahid elektron lövhə”də yerləşdirilib. “Vahid elektron lövhə”də olan məlumatlar sistem vasitəsilə onlayn rejimdə yenilənir. Həmin məlumatla bu linkə keçid etməklə tanış olmaq mümkündür.

**Mənbə:**

https://report.az/biznes-xeberleri/azerbaycanda-ixrac-fealiyyeti-ile-mesgul-olan-vergi-odeyicilerine-ilk-defe-qaytarilan-odenisler-aciqlanib-ekskluziv/

**Digər saytlar və portallar**

1. https://report.az/ru/biznes/v-azerbajdzhane-obnarodovany-vozvraty-platezhej-nalogoplatelshikam-osushestvlyayushim-eksportnuyu-deyatelnost-v-azerbajdzhane/

“Vergitutma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 02.04.2024-cü il tarixində təsdiq olunub

2. https://banker.az/az%c9%99rbaycanda-ixrac-f%c9%99aliyy%c9%99ti-il%c9%99-m%c9%99sgul-olan-vergi-od%c9%99yicil%c9%99rin%c9%99-ilk-d%c9%99f%c9%99-qaytarilan-od%c9%99nisl%c9%99r-aciqlanib/
3. https://vergiler.az/news/taxes/33241.html
4. https://fed.az/az/diger/azerbaycanda-ixrac-fealiyyeti-ile-mesgul-olan-vergi-odeyicilerine-ilk-defe-qaytarilan-odenisler-aciqlanib-220504
5. https://www.azerbaycan24.com/azerbaycanda-ixrac-fealiyyeti-ile-mesgul-olan-vergi-odeyicilerine-ilk-defe-qaytarilan-odenisler-aciqlanib-ekskluziv/
6. https://sizinxeber.az/economy/biznes/62181-azrbaycanda-ixrac-faliyyti-il-mul-olan-vergi-dyicilrin-ilk-df-qaytarlan-dnilr-aqlanb-eksklziv.html
7. https://www.azerbaycan24.com/ru/eksporteram-v-azerbaydzhane-v-2024g-vernuli-69-mln-manatov-izlishne-perechislennih-nalogov/
8. https://aktualinfo.org/2025/01/15/az%c9%99rbaycanda-ixrac-f%c9%99aliyy%c9%99ti-il%c9%99-m%c9%99sgul-olan-vergi-od%c9%99yicil%c9%99rin%c9%99-ilk-d%c9%99f%c9%99-qaytarilan-od%c9%99nisl%c9%99r-aciqlanib/
9. https://poliqon.info/ixrac-fealiyyeti-ile-mesgul-olan-vergi-odeyicilerine-ilk-defe-qaytarilan-odenisler-aciqlanib-573278-xeber.html
10. https://novayaepoxa.com/yeksporteram-v-azerbaydzhane-v-2024g-vernu/517671/
11. https://vzglyad.az/news/261334

"Vergitutma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 02.04.2024-cü il tarixində təsdiq olunub

“Beynəlxalq ticarət” Işçi qrupunun fəaliyyəti

14.01.2025

crossmedia.az

**TDT ölkələri arasında ticarətin inkişafında mühüm addımlar atılır**

Türk dünyasında ticarət əlaqələrinin genişlənməsi və inkişafı üçün bir sıra mühüm addımlar həyata keçirilib. Bu tədbirlər davam etdirilir və Azərbaycan üçün müsbət perspektivlərə yol açır. Həmçinin ticarət əlaqələri ölkələr arasında logistik imkanların təkmilləşməsinə gətirib çıxarır.

Mövzu ilə bağlı beynəlxalq ticarətin asanlaşdırılması üzrə ekspert Ceyhun Nəcəfli Crossmedia.az-a açıqlama verib. Ekspertin sözlərinə görə, Türk Dövlətləri Təşkilatı (TDT) üzv ölkələr arasında ticarətin asanlaşdırılması və sürətləndirilməsi məqsədilə bir sıra mühüm təşəbbüslər həyata keçirir:

“Bu istiqamətdə 2022-ci ildə qəbul edilən Ticarətin Asanlaşdırılması üzrə Strategiya Sənədi, üzv dövlətlər arasında ticarət və gömrük prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılmasını hədəfləyir. Azərbaycanda bu strategiyanın icrasını təmin etmək məqsədilə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Beynəlxalq ticarət işçi qrupu əlaqələndirici qurum kimi müəyyən edilib. Bu işçi qrupu, ticarət prosedurlarının təkmilləşdirilməsi və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərir. Komissiyanın əsas vəzifələri arasında biznes mühitinin əlverişliliyinin artırılması, investisiya cəlbediciliyinin yüksəldilməsi və qanunvericiliyin təkmilləşdirilməsi yer alır. Beynəlxalq ticarət işçi qrupu isə sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması, ticarət əməliyyatlarının rəqəmsallaşdırılması və logistika səmərəliliyinin yüksəldilməsi kimi məsələlər üzərində çalışır”.

C.Nəcəfli qeyd edib ki, göstərilənlərlə yanaşı, TDT-yə üzv ölkələr arasında ticarətin asanlaşdırılması sahəsində həyata keçirilən digər perspektivli təşəbbüslər üzrə aşağıdakı tədbirləri göstərmək olar:

"Sadələşdirilmiş Gömrük Dəhlizi: 2022-ci ilin noyabrında Səmərqənddə keçirilən Zirvə Görüşündə Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında Saziş imzalanıb və 2024-cü ilin noyabrında qüvvəyə minib. Bu təşəbbüs gömrük prosedurlarını asanlaşdırmaq, rəqəmsal məlumat mübadiləsini inkişaf etdirmək və tranzit müddətlərini qısaltmaqla, Türk dünyası arasında

“Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 19.04.2024-cü il tarixində təsdiq olunub

ticarəti asanlaşdırmağı hədəfləyir. Orta Dəhlizin Rəqəmsallaşdırılması: Orta Dəhliz üzərində rəqəmsallaşma və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək. Türk İnvestisiya Fondunun Yaradılması: 2022-ci ildə TDT-nin ilk ortaq maliyyə qurumu olan Türk İnvestisiya Fondu yaradılıb. Fond, üzv dövlətlər arasında ticari-iqtisadi əməkdaşlığı gücləndirmək və birgə layihələr həyata keçirmək məqsədi daşıyır. Bu tədbirlər nəticəsində üzv ölkələr arasında ticarət əlaqələrinin güclənməsi, iqtisadi əməkdaşlığın dərinləşməsi və regionda iqtisadi inkişafın sürətlənməsi gözlənilir”.

Müsahibin sözlərinə görə, bu, xüsusilə, ticarət prosedurlarının sadələşdirilməsi və rəqəmsallaşdırılması, logistika xərclərinin azalması və ticarət dövriyyəsinin artması ilə nəticələnəcək:

“Azərbaycan üçün isə bu addımların müsbət təsirləri arasında tranzit potensialının artırılması, iqtisadiyyatın diversifikasiyası və yeni iş yerlərinin yaradılması kimi faydalar yer alır. Bütün bu təşəbbüslər Azərbaycanın regionda iqtisadi mövqeyini gücləndirəcək və beynəlxalq ticarətdə rolunu artıracaq”.

**Mənbə:**

https://crossmedia.az/az/iqtisadiyyat/iqtisadiyyat1/tdt-oelk-l-ri-arasinda-ticar-tin-inkisafinda-muehuem-addimlar-atilir-aciqlama

“Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 19.04.2024-cü il tarixində təsdiq olunub